# YEDDİ VAQİF, BİR XURAMAN



***Düz 50 ildir ki, böyük Azərbaycan şairi - dramaturqu Səməd Vurğun göy qübbəsinin altında yoxdur. Əbədiyyətə qovuşmuşdur. Onun ölməz əsərləri, şerləri, poemaları, romantik vüsətli dramaturgiyası milli mədəniyyətimizi daha da zənginləşdirmişdir. "Vaqif", "Fərhad və Şirin", "Xanlar", "İnsan" kimi zəngin mənəviyyatlı pyesləri həm milli dramaturgiyamızı, həm də teatrımızı xeyli dərəcədə möhkəmləndirmişdir.***

Əgər Səməd Vurğun təkcə "Vaqif" mənzum pyesini yazmış olsaydı belə, yenə də milli dramaturgiyada özünün layiqli yerini tuta bilərdi. "Vaqif" tarixi dramı həm müəllifə, həm də dramaturgiyamıza, teatrımıza və eyni zamanda böyük bir aktyor nəslinin mənəvi inkişafına güclü təsir göstərdi və Azərbaycan teatrının repertuarında əbədilik olaraq özünə möhkəm yer tutdu. İlk tamaşası 1938-ci ilin oktyabr ayının 5-də göstərilən "Vaqif" əsəri tez bir zamanda misli görünməmiş uğur qazandı və Azərbaycanın elə bir teatrı olmadı ki, həmin əsəri öz repertuarına salmasın. Bu tarixi bir həqiqətdir.

Bu baxımdan S.Vurğunun pyeslərinin Naxçıvan teatrında oynanılması xüsusi bir tədqiqat mövzusudur. 1939-cu ildən (22 sentyabr) başlayaraq qədim sənət ocağında ölməz dramaturqun əsərləri dəfələrlə tamaşaya qoyulmuşdur və aktyor, rejissor kadrlarının mənəvi yüksəlişində, ərsəyə çatmasında danılmaz rol oynamışdır. İbrahim Həmzəyevin, İsa Musayevin, Əyyub Haqverdiyevin, Zəroş Həmzəyevanın, Mirhəsən Mirişlinin, Əkbər Qardaşbəyovun, Firuzə Əlixanovanın, Xədicə Qazıyevanın "Vaqif" və "Fərhad və Şirin" tamaşalarında yaratdıqları müxtəlif xarakterli obrazlar sənətkarlıq məziyyətlərilə nəzərlərdə diqqətlənmişdir.

Yeddi Vaqif, bir Xuraman. Məqaləmizin sərlövhəsi belədir. Söhbət bir görkəmli aktrisanın məharətlə yaratdığı Xuraman obrazından və bir də onun qarşılaşdığı yeddi Vaqif rollarının ifaçılarından getdiyi üçün məqaləmizin sərlövhəsini məhz belə adlandırmağı qərara aldıq.

Dəyərli sənətçimiz, Azərbaycan Respublikasının xalq artisti Zəroş xanım Həmzəyevanın 55 illik sənət palitrasına əlvanlıq və cazibədarlıq gətirən onlarla obrazlar düzümü vardır. Və bu obrazlar arasında sevimli sənətkarımıza daha doğma və daha məhrəm olan, aktrisa tərəfindən yüksək istedadla yaradılan və geniş sənətsevər kütləsinin böyük diqqətini çəkən "Vaqif" tamaşasındakı Xuraman obrazı xüsusi tədqiq və təbliğ edilməyə layiqdir.

"Vaqif" tamaşası Naxçıvan teatrında ilk dəfə 1939-cu ildə (22 sentaybr) oynanılmış və quruluşçu rejissor Həsən Əliyev, rəssamı Şəmil Qazıyev olmuşdur. Həsən Əliyev, Məcid Zeynalov, Həsən Ağayev, İbrahim Həmzəyev, Baxşı Qələndərli kimi tanınmış rejissorlar ayrı-ayrı illərdə "Vaqif" tamaşasına quruluş vermişlər. Bu tamaşalar böyük bir aktyor nəslinin yetişməsində mühüm rol oynamışdır.

Bir neçə il bundan öncə aparılan tədqiqatlar zamanı bizə məlum olmuşdur ki, Zəroş xanım Həmzəyeva yeddi Vaqif rolunun ifaçısı ilə səhnədə qarşılaşmışdır. Bir neçə il bundan əvvəl bu sətirlərin müəllifi maraqlı, yadda qalımlı faktlarla əlaqədar olaraq Zəroş xanım Həmzəyevayla görüşüb və ondan lazımi dəlillər əldə etmişdir.

Min təəssüflər olsun ki, Zəroş xanım bu gün aramızda yoxdur. Öncə onu deyim ki, Zəroş xanım Xuraman rolunu 1942-ci ildə oynamışdır. Səhnədə qarşılaşdığı ilk Vaqif sevgili sənətçimiz İbrahim Həmzəyev olmuşdur.

Zəroş xanımın xatirələrindən. Mən sənət aləminə erkən yaşlarımda atılmışam. Naxçıvan teatrında ilk rolum N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasında Yetər olub. İlk sənət müəllimim isə İbrahim Həmzəyev olmuşdur. 1942-ci ildə oynadığım Xuraman rolu mənim səhnə ömürlüyümdə xüsusi və yanar bir səhifə təşkil edir. Xoşbəxtliyim ondadır ki, mən "Vaqif" tamaşasında müxtəlif sənətkarlarla rastlaşmışam. Və bu görüşlər mənim bir aktrisa kimi mənəvi inkişafımda böyük rol oynayıb. Və yeri gəlmişkən deyim ki, mən "Fərhad və Şirin" mənzum faciəsində həm Şirin, həm də Məryəm rollarında oynamışam. Xuraman rolu ilə mən demək olar ki, bütün Zaqafqaziyanı gəzmişəm. Yeddi monumental Vaqif rolunun ifaçıları ilə qarşılaşmışam.

Qarşılaşdığım ilk Vaqif həyat yoldaşım, gözəl sənətkar İbrahim Həmzəyev olmuşdur. Bütün səhnə uğurlarımı İbrahim Həmzəyevin yanarlı fəaliyyəti ilə bağlayıram. Ondan çox şeylər öyrənmişəm. Xuramanı oynadığım vaxtlar mən xeyli cavan idim. Lakin buna baxmayaraq İbrahim Həmzəyev bu rolu mənə etibar etdi. Yeri gəlmişkən bir faktı da qeyd edim ki, İbrahim Həmzəyev 25 il fasiləsiz olaraq Naxçıvan teatrının baş rejissoru və direktoru işləmişdir. 50-60-cı illərdə Azərbaycan teatrının gözəl bir ənənəsi var idi. Teatrlar arasında yaradıcılıq körpüsü yaradılmışdı. Adlı-sanlı aktyorlar Sidqi Ruhulla, Ələsgər Ələkbərov, Kazım Ziya, Əli Zeynalov, Mərziyə Davudova, Rza Əfqanlı, İsmayıl Dağıstanlı, Həsənağa Salayev, Mustafa Mərdanov, Leyla Bədirbəyli... kimi qüdrətli sənətkarlar tez-tez Naxçıvana gələr və yerli aktyorlarla bir yerdə müxtəlif tamaşalarda iştirak edərdilər. Bu gəlişlərin yerli aktyorlara son dərəcə müsbət

təsiri olardı. Sonradan bu gözəl ənənə yox olmağa başladı.

"Vaqif" tamaşası mənim tərcümeyi-halımda unudulmaz və ən qiymətli bir səhifədir. Məhz bu tamaşa vasitəsilə gör mən kimlərlə təmasda olmuşam. Sidqi Ruhulla, Ələsgər Ələkbərov, Kazım Ziya, İsmayıl Dağıstanlı, Mürşid Haşımlı, Həsənağa Salayev, İbrahim Həmzəyev, İsa Musayev, Əyyub Haqverdiyev. Bu aktyorların hər biri böyük sənət məktəbi idi. Ələsgər Ələkbərov, Kazım Ziya kimi nadir sənət korifeyləri ilə bir tamaşada oynamaq və tərəf müqabili olmaq mənim üçün böyük bir səadət idi.

Dedim ki, qarşılaşdığım ilk Vaqif İbrahim Həmzəyev olmuşdur. Tamaşada maraqlı aktyor ansamblı iştirak edirdi. Səməd Möhləvinin Vidadisi, Mirhəsən Mirişlinin İbrahim xanı və sonradan Vəziri, Rza İsfəndiyarlının Şeyx Alışı və sonradan Vidadisi, İsa Musayevin Eldarı və sonradan Vaqifi, Kazım Hüseynovun Qacarı...sözün əsl mənasında həqiqi səhnə surətləri idi. Yeri gəlmişkən bir maraqlı faktı da qeyd etməyi lazım bilirəm. Gözəl sənətçimiz Əyyub Haqverdiyev Kürd Musa rolunda 800 dəfədən artıq çıxış etmişdir. Naxçıvan teatrının yalnız bir Kürd Musası olmuşdur, o da Əyyub Haqverdiyev. Yalnız o, dəyişilməz olaraq qalmışdır.

Qarşılaşdığım ikinci Vaqif rolunun ifaçısı Azərbaycan Respublikasının xalq artisti İsa Musayev olmuşdur. Otuz ildən çox "Vaqif" tamaşasında oynamışam. Səməd Vurğunun anadan olmasının 70 illik yubileyinə hazırlanan tamaşanın quruluşçu rejissoru İbrahim Həmzəyev olmuşdur. Həmin yubiley tamaşasında da mən Xuraman, Vaqif İsa Musayev olmuşdur.

Yuxarıda sevərliklə qeyd etdim ki, bir vaxtlar Azərbaycan teatrının qüdrətli sənətkarları tez-tez Naxçıvana qastrola gələrdilər və bizimlə bərabər tamaşalarda iştirak edərdilər. Belə hallar müntəzəm surətdə olardı.

Üçüncü qarşılaşdığım "Vaqif" rolunun ifaçısı Azərbaycan səhnəsinin fəxri, Azərbaycan Respublikasının xalq artisti, müqtədir sənətkar Kazım Ziya olmuşdur. Bu böyük sənətkarın ilhamla yaratdığı Vaqif sözün əsil mənasında müdrik bir şəxsiyyət, xalqının nurlu sabahını düşünən qüdrətli bir dövlət xadimi idi. Kazım Ziyanın sənəti ölməz bir sənət idi. Nə qədər romantik vüsətli, nə qədər yüksək istedada malik bir aktyor idi. Kazım Ziya ilə hər bir qarşılaşma mənim sənət təcrübəmi durmadan artırırdı. Və bunu da deyim ki, hər bir Vaqifin özünəməxsus sənət keyfiyyəti var idi. İbrahim Həmzəyev bir başqa Vaqif idi, İsa Musayev bir başqa. Kazım Ziya tamam başqa bir Vaqif idi. Birisi müdrik şair kimi rəsm edirdi Vaqifi, birisi əsl dövlət xadimi kimi, başqa birisi isə əsl mənada vətənpərvər Vaqifi yaradırdı.

Qarşılaşdığım dördüncü Vaqif böyük və qüdrətli sənətkar, ölməz klassik rolları ilə Azərbaycan səhnəsini ziynətləndirən Ələsgər Ələkbərov idi. Nadir istedad sahibi, böyük aktyorluq məharətinə malik olan Ələsgər Ələkbərovun qüdrət və böyük ilhamla yaratdığı Vaqif hər şeydən öncə müdrik şair, qüdrətli dövlət xadimi və eyni zamanda həqiqi sərkərdə idi. Naxçıvan qastrolu zamanı oynanılan bu tamaşada Ələsgər Ələkbərov Vaqif, böyük sənətkarımız Sidqi Ruhulla Qacar, mən isə Xuraman rollarında çıxış etmişik. Bu tamaşa Naxçıvanın mədəni həyatında ən əlamətdar bir hadisəyə çevrildi.

1969-cu ilin yanvar ayında mən Azərbaycan Dövlət Akademik Dram Teatrına dəvət edildim. Bu böyük teatrın kollektivi ilə "Vaqif" tamaşasını oynadıq. Vaqif rolunda qüdrətli sənətkarımız İsmayıl Dağıstanlı, Xuraman rolunda mən çıxış etdik. Bu mənim üçün böyük bir səadət idi. Naxçıvan teatrının tarixində görünməmiş bir hadisə idi mənim Bakıya dəvət olunmağım və bir də şöhrətli kollektivdə çıxış etməyim.

İsmayıl Dağıstanlı Zəroş xanım Həmzəyevanın qarşılaşdığı altıncı Vaqif idi. Bəs beşinci Vaqif rolunun ifaçısı kim olmuşdur? İbrahim və Zəroş Həmzəyevlər bir neçə il Füzuli teatrında işləmişlər. Daha doğrusu xüsusi dəvətlə orada fəaliyyət göstərmişlər. Füzuli teatrında İbrahim Həmzəyevin quruluşunda "Vaqif" tamaşası hazırlanmışdır. Zəroş xanımın qarşılaşdığı beşinci Vaqif rolunun ifaçısı Azərbaycan Respublikasının əməkdar artisti Mürşid Haşımlı olmuşdur.

Zəroş xanımın sənət ömürlüyünə düşən yeddinci Vaqif rolunun ifaçısı kim olmuşdur? Azərbaycan Respublikasının xalq artisti Həsənağa Salayev Naxçıvana dəvət olunmuşdur. O, Naxçıvan teatrının aktyorları ilə "Vaqif" tamaşasında iştirak etmişdir. Vaqif rolunda Həsənağa Salayev, Xuraman rolunda Zəroş Həmzəyeva çıxış etmişdir. Bu tamaşa görüş 30 il bundan öncə olmuşdur. Bu sətirlərin müəllifi o vaxtlar gözəl sənətçimiz Həsənağa Salayevlə görüşüb "Şərq qapısı" qəzetində müsahibə aparmışdır. Apardığım müsahibədə Həsənağa Salayev Naxçıvan teatrının aktyorlarını, xüsusən Zəroş xanımın sənətini yüksək qiymətləndirmişdir.

65 il bundan öncə gözəl sənətkarımız Zəroş xanım Həmzəyeva "Vaqif" tamaşasında Xuraman rolunu oynayıb. Və illər keçib o, səhnədə yeddi Vaqif rolunun ifaçıları ilə qarşılaşıb. İbrahim Həmzəyev, İsa Musayev, Kazım Ziya, Ələsgər Ələkbərov, Mürşid Haşımov, İsmayıl Dağıstanlı, Həsənağa Salayev. Nə qədər ağrılı-acılı, kədərli olsa da deməliyik ki, bu aktyorların heç biri bu gün göy qübbəsinin altında yoxdur. Tanrıya qovuşmuşlar. Amma bu gün özləri olmasa da sözləri, yaratdıqları rolların isti hərarəti, ılıq məlhəmi qalıb yaddaşlarda. Min əfsuslar oslun ki, bu gün Zəroş xanım da göy qübbəsinin altında yoxdur. Və onunla hər bir görüşümdə bu gözəl sənət nağılına qulaq asanda xəyal öz karvanını çəkib yeddi Vaqif, bir Xuraman hekayətinə səsləyir məni. Bu gün ölməz şairimiz Səməd Vurğunun dünyaya gəlişinin 100 illiyi ərəfəsində Yeddi Vaqif, bir Xuraman hekayəti bizi yenidən Vurğun dünyasına səsləyir. Bu dünyada məhəbbət də, səadət də, ölməzlik də pərvəriş tapıb. Səməd Vurğun ədəbi irsi insanları məhəbbətə, sədaqətə, əminamanlığa, birliyə səsləyir. Bu irs əbədi və yaşarıdır.

***Cəlil VƏZİROV,***
***teatrşünas***